# ŞƏHƏRLƏRİN TARİXİ MƏRKƏZLƏRİNDƏ YAŞAYIŞ TİKİLİSİNİN ŞƏHƏRSALMA NİZAMLANDIRILMASI METODLARI

**Qəhramanova Şəhla Şixali qızı**- m.ü.f.d., dosent, Memarlıq layihələndirilməsi və şəhərsalma kafedrası, AzMİU, shahlakahramanova@yandex.ru

**Annotasiya.** Məqalədə tarixi şəhərlərdə yaşayış tikilisinin müasir nizamlanma metodlarının tədqiqi aparılır. Müəyyən edilmişdir ki, şəhərlərin tarixi rayonlarında tikinti işlərinin aktiv şəkildə aparılması formalaşmış məhəllələrin morfologiyası və ənənəvi tikilinin dəyişməsinə, tarixi mühitin dəyərsizləşdirilməsinə gətirib çıxarır. Belə dəyişikliklərdən qaçmaq üçün tarixi-şəhərsalma həllərinin hərtərəfli tədqiqi zəruridir. Həmçinin üzə çıxarılmışdır ki, Avropa ölkələrinə xas olan sosial tədqiqatlar olmadan xalis memarlıq və şəhərsalma həlləri tarixi məhəllələrdəki rekonstruksiya problemlərini həll edə bilməzlər.
**Açar sözlər:** şəhərsalma nizamlanması, tarixi məhəllələr, yaşayış tikilisi, şəhərsalma morfologiyası**,** tarixi-şəhərsalma tədqiqatları

# URBAN DEVELOPMENT CONTROL OF RESIDENTIAL DISTRICTS IN HISTORICAL CENTERS OF CITIES

**Gahramanova Shahla Shıxali-** Phd in architecture, docent, department of Architectural design and urban planning, AzUAC, shahlakahramanova@yandex.ru

**Abstract.** The article describesthe investigations of modern urban regulating methods of residential districts in historical cities. İt was revealed that active construction in historicalcity districts leads to changes in the morphology of the existing neighborhoods and traditional buildings, and also to depreciation of the historical environment. To avoid such changes a detailed history and urban studies are requires. It was also determined that a purely architectural and urban solutions without the involvement of sociological methods, so typical for European studies, can't solve the problems of reconstruction of historical center.
**Keywords:** urban development regulation, historic districts, residential districts, urban morphology, historical and urban studies

İri şəhərlərin tarixi mərkəzlərinin intensiv ərazi mənimsənilməsi ilə bağlı yenidənqurma prosesləri, tarixi məhəllələrdə çoxmərtəbəli yaşayış binalarının aktiv tikintisi ənənəvi olaraq formalaşmış şəhər məkanlarının morfologiyası və ölçülərinin dəyişməsinə gətirib çıxarır. Bunun nəticəsində dəyərli tarixi mühit dağıdılır və tikili daxilində yaşayış mühitinin keyfiyyəti düşür. Burada söhbət tarixən yaranmış məhəllələrin morfologiyasından gedir- onlara xas olan planlaşdırma strukturundan, tikilmiş və boş ərazilərdən, həyətyanı sahələrdən, yaşıl bitkilərdən, binaların mərtəbə sayından və s. (şəkil 1).

Hal-hazırda şəhərin tarixi hissələrində formalaşmış yaşayış strukturlarının qorunması və burada yeni funksiyaların yaradılması arasındakı yaranan ziddiyətlər xüsusilə aktualdır. Bu ziddiyətlərin aradan qaldırılması üçün aşağıdakı üsullardan istifadə etmək məqsədəuyğundur:

- şəhərin tarixi mühitində yeni tikintinin həcmi-məkan parametrlərinin müəyyən edilməsi;
- müxtəlif növ layihə sənədlərinin hazırlanması və razılaşdırılması təcrübəsinin təkmilləşdirilməsi.

Şəhərlərin tarixi zonalarının yenidən qurulması prosesində əvvəlcə şəhərin tarixi inkişafını, tarixi-mədəni irsin qiymətləndirilməsini, qiymətli tikili və landşaftın vizual açılışını, davamlı şəhər mühitinin kompleks tarixi-şəhərsalma qiymətləndirilməsini daxil edən tarixi-şəhərsalma tədqiqatlarının aparılması vacibdir. Tədqiqatların nəticələri aşağıdakı sxemlər şəklində təqdim edilməlidir:

- şəhərin planı və tikintisinin əsas inkişaf mərhələlərinin sərhədlərini əks etdirən tarixi inkişaf sxemi; burada tarixi mühitin və onun ayrı-ayrı fraqmentlərinin və ya elementlərinin ərazisi göstərilməlidir;
- elmi inventarizasiya zamanı aşkar olunmuş memarlıq abidələri, qiymətli və səciyyəvi tarixi tikili və planlaşdırma daxil olmaqla tarixi-mədəni irsin qiymətləndirilməsi sxemi;
- bina və ansamblların vizual qavranma zonalarını, obyektin vizual qavranma məsafəsini nəzərə almaqla əsas vizual əlaqələri qeyd edən qurğu və komplekslərin mənzərə açılışlarının təhlili sxemi;
-müasir və tarixi dominantları, kompozisiya oxlarını, əsas daxili şəhər məkanlarını əks etdirən mövcud memarlıq-məkan kompozisiyasının sxemi;
- tarixi-mədəni, şəhərsalma və memarlıq-kompozisiya əhəmiyyətli amillərin təhlilinin nəticəsini əks etdirən şəhər mühitinin kompleks tarixi-şəhərsalma qiymətləndirilməsi sxemi.

Belə tədqiqatlar tarixi mühitdə mövcud və yeni tikintinin yenidən qurma rejimlərini nizamlamağa imkan verən tarixi-memarlıq planınının hazırlanması üçün əsasdır. Bu nizamlanmanın əsas məqsədlərindən biri yaşayış vahidlərinin sıxlığının maksimal artırılması və eyni zamanda tarixən yaranmış məhəllələrin yaşayış mühitinin məkan strukturu və komfortunun qorunub saxlanılmasıdır.

Bazar iqtisadiyyatı şəraitində ərazi istifadəsi proseslərinin idarəsi zonalara ayrılma qaydaları əsasında yerli idarəetmə orqanları tərəfindən həyata keçirilir. Bu qaydalar yaşayış yerlərinin zonalaşdırmasına, onların istifadə növlərinə görə eyni tipli sahələrə bölünməsinə əsaslanır. Belə zonalaşdırma bütün şəhər ərazisi üzrə həyata keçirilir və ya mərhələlərlə ən problemli, islahatlara daha çox ehtiyacı olan və investorları daha çox maraqlandıran rayonları əhatə edir. Tarixi məhəllələr üçün vacib olan məqamlar bundan ibarətdir ki, bu qaydalarda yeni tikililərin mərtəbə sayı, binaların həcmi, tikintinin sıxlığı, konstruktiv və üslub xarakeristikalarının məhdudlaşdırılması, həyətlərin, rekreasiya zonalarının və başqa açıq məkanların optimal ölçüləri barədə məlumat öz əksini tapsın. Bunun üçün şəhərin tarixi mühitində yeni tikintinin həcmi-məkan parametrlərinin modelləşdirmə metodikasını yaratmaq lazımdır. Adıçəkilən metodika tarixi zonalarda aparılacaq tikintinin sıxlığı, hündürlüyü, kompozisiyasına aid bir sıra normativ göstəriciləri daxil edən obyektiv kəmiyyət meyyarlarının axtarışına istiqamətlənməlidir.

Məsələn, Moskva şəhəri üçün tikinti normaları hazırlanmışdır [1]. Bu normalarda şəhərin tarixi hissəsində aparılan tikinti fəaliyyətinin nizamlanma vasitəsi kimi tikilinin morfotiplər sistemi qəbul edilmişdir. Tikilinin morfotipləri – şəhərin təkamül inkişafı prosesində formalaşmış tikili tipləridir. Məsələn, Bakı şəhəri üçün aşağıdakı morfotipləri nümunə kimi göstərmək olar; İçəri şəhər morfotipi, XIX əsrin sonu- XX əsrin əvvəllərinə aid ənənəvi 3-5 mərtəbəli tikili; 1920-1930-cu illərin "konstruktivizm dövrü" tikilisi; 1940-1950-ci illərin "neoklassisizm" tikilisi və s.

Ənənəvi tikili morfotiplərinin məkan təşkilinin qorunması məqsədilə aşağıdakı şəhərsalma xarakteristikalarına məhdudiyət qoyulur:
- hündürlük: məhəllədə tikintinin orta mərtəbə sayı, küçənin ön hissəsininxarakteri;
- məhəllədə açıq və tikilmiş məkanların nisbəti: tikinti faizi, tikili sıxlığı;
- məhəllədə binaların maksimal ölçüləri: hündürlük (mərtəbə ilə), uzunluq (metrlə);
- məhəllənin tikinti xətti: evlər arasında boş ərazilərin faizi, bu ərazilərin memarlıq tərtibatının xarakteri, binaların küçəyə çıxan fasadlarının tikinti xəttinə nisbətən istiqamətlənməsi;
- məhəllədaxili planlaşdırma: sahələrinin (həyətlərin) davamlı forması, sahənin (həyətin) bir tərəfinin maksimal ölçüsü [1].

Bəzi elmi tədqiqatlarda [2] tarixən yaranmış tikili bloklarının məqsədyönlü istifadəsi üçün əvvəlcə aşağıdakı iki əsas istiqamət üzrə qarşılıqlı tədqiqatların aparılması məsləhət görülür:
-bütün sahə və ayrı-ayrı evlərin həcmi-məkan təşkilinə tarixən təsir göstərən funksional-texnoloji proseslərin təhlili;
-bina və ərazilərin müasir istifadəsi ilə bağlı proseslərin təhlili.

Əldə edilən məlumatlar kompleks yenidənqurmanın tam minimal modulunun təyin edilməsi imkanlarını müəyyən edir. Bu modula yeni obyektlər daxil edilə bilər və bu da bu metodun pozitiv

nəticələrindən biridir. Digər bir tədqiqatda [3], əsasında ərazinin order zonalaşdırılması duran şəhər ərazisi inkişafının idarə etmə mexanizmi təklif olunur. Bu metodda tədqiq olunan ərazi müəyyən tikili parametrləri olan sahələrə bölünür. Ərazinin order zonalaşdırılması şəhərsalma rejimləri, planlaşdırma zonaları və ayrı-ayrı mülklər göstərilməklə şəhər ərazisinn sxemindən ibarətdir. Eyni zamanda bu sənəddə ayrı-ayrı zonalar üçün şəhərsalma siyasəti və tikilinin memarlıq parametrləri müəyyən edilir. Gələcək tikintinin forma və miqyaslarına layihədən qabaqkı tədqiqatlar əsnasında müəyyən edilən memarlıq parametrləri sistemi vasitəsilə nəzarət etmək təklif olunur.




**Şəkil 1.** Dünyanın tarixi şəhərlərin müxtəlif simaları

Yuxarıda nəzərdən keçirilən metodikaların müsbət tərəflərinə baxmayaraq onlar ümumi memarlıq parametrlərini nizamlayan sənədin yaradılmasına yönəlməmişdir. Bu metodikalar yalnız layihədən qabaqkı tədqiqatlar zamanı şəhərsalma məsələləri kompleksindən çıxan tövsiyələrin yaradılmasına istiqamətlənmişdir. Bir çox xarici ölkələrin şəhərsalma təcrübəsində sistemli tarixi-şəhərsalma mühafizə nizamlanması tətbiq olunur. Bu nizamlama üsulunun əsas prinsipi yeni tikintinin mühitin tipoloji xarakteristikalarına (tikinti sahəsinin proporsiyaları, sıxlığı, mərtəbəsi, fasadın ön hissəsinin xarakterinə və s.) tam uyğunluğu və küçə boyu görünüşün qorunmasıdır.

Qərbi Avropa ölkələrində şəhərlərin tarixi ərazilərinin mənimsənilməsilə bağlı tədqiqatlaırn aparılması və problemlərin üzə çıxarılması üçün çox zaman müəyyən şəhərsalma şəraitinin güclü və zəif tərəflərini, və həmçinin imkanlar və təhlükələri müəyyən edən SWOT( Strengths- güclü tərəflər; Weaknesses- zəif tərəflər; Opportunities- imkanlar; Threats- təhlükələr)- analizdən istifadə olunur. Belə üsul sosial-siyasi, qanunverici, mühit və texniki səviyyələrdə olan birinci növbəli problemləri müəyyən etməyə imkan yaradır.

Belçikanın Lyej şəhərində CRAU Memarlıq və şəhərsalma tədqiqatları mərkəzi (Centre de Recherches d'Architecture et d'Urbanisme de l'Univeriste de Lieg) tərəfindən tərtib edilmiş tarixən yaranmış yaşayış məhəllələrinin şəhərsalma mühitilə işləmə metodikalarından biri də diqqətə layiqdir [4]. Bu metodika şəhərin memarlıq-mühit dəyərini müəyyən edən əməli bir alətdir. O, tikilinin vəziyyətini və həmçinin tarixi mühitin ən əhəmiyyətli keyfiyyətlərinin və elementlərinin ekspress-qiymətləndirilməsini təmin edir. Analiz zamanı ərazinin coğrafi, tarixi və şəhərsalma xüsusiyyətləri, yerin təkamülü, problemləri və müasir vəziyyəti, tarixən yaranmış ərazinin üstünlük təşkil edən memarlıq xüsusiyyətləri, tikinti nümunələri, ənənəvi tikinti materialları, tekstura və rənglər aşkar edilir. Bu tədqiqatın ayrılmaz hissəsini sosioloji sorğular təşkil edir. Adı çəkilən metodikanın praktiki nəticəsi mühitin tarixi irsi və hazırki vəziyyəti barədə ən vacib məlumatları daxil edən, mövcud tikilinin tipologiyası və tədqiq olunan obyekt üçün hazırlanmış islahat üsullarını özündə cəmləşdirən atlasdır.

Sosial yönümlü metodikalardan biri də R.O.C.- "Mədəniyyət tədqiqatları və istiqamətləri" (Belçika, Vallon) qrupu tərəfindən təqdim olunmuşdur [5]. Bu metodika yenidən qurulan məhəllə əhalisinin şəhərsalma həllərinin qəbul edilməsində real iştirakına əsaslanır. O, yenidən qurulmaya məruz qalan hər bir məhəllədə yerli xüsusiyyətlər və həyat tərzinin aydınlaşdırılması üçün köməkçi vasitədir və rekonstruksiya edilən məhəllənin şəhərsalma və sosioloji təhlilinin sıx əlaqəsini göstərir. "Əhali - ən maraqlı olan tərəfdir, məhz əhali məhəlləni içindən görür, onu hər kəsdən yaxşı tanıyır, və burada həyatını davam edəcəkdir" [5]. Sosioloji tədqiqat metodlarının köməkliyi ilə şəhərsalma mütəxxəsisi yenidən qurma məsələlərinin sosial parametrləri barəsində dəqiq məlumat alır, və bu da sxematizm və sosial cəhətdən faydasız qərarlardan yayınmağa imkan verir.

**Nəticə.** Yuxarıda deyilənləri nəzərə alaraq, qeyd etmək lazımdır ki, layihədən qabaqki tarixi-şəhərsalma təhlili səviyyəsində tarixi məhəllələrin müxtəlif tikinti nizamlanma metodları əksər hallarda oxşardır. Lakin, Avropa metodikalarına mütləq yenidən qurulan məhəllə əhalisinin əhval-ruhiyyəsini və fikirlərini aydınlaşdıran sosioloji tədqiqatlar daxildir. Əksinə, MDB ölkələri məkanında və Azərbaycanda sosioloji təhlillər aparılmır, yalnız mütəxəsislərin rəyi nəzərə alınır. Təəssüf ki, bizim ölkədə əhali ilə yerli səviyyədə iş aparmaq bəhanəsi ilə əhaliyə rəhbərliyin planları barəsində xəbərdarlıq etmək və məlumat vermək təmayülü nəzərə çarpır. Lakin xarici təcrübə göstərir ki, layihədən qabağki təhlilin vacib nəticələrindən biri əhali ilə iş hesab edilir [2]. Bu da öz növbəsində əhalinin şəhərsalma siyasətinin hazırlanmasında fəal iştirak etməsi üçün yaxşı stimuldur. Görünür ki, "xalis" memarlıq və şəhərsalma həlləri yaşayış məhəllələrinin yenidən qurulması ilə bağlı bütün problemləri həll etmir, çünki yenidən qurma mürəkkəb şəhərsalma və sosial prosesdir, tarixən yaranmış şəhərslama və sosial situasiyalar isə bilavasitə əhalinin yaşayış şəraitinə və maraqlarına toxunur. Sosioloji metodlar memarlıq-məkan və şəhərsalma üsulları ilə birgə mövcud yaşayış mühitinin obyektiv və dürüst yerli xüsusiyyətlərini, əhalinin həyat tərzi və maraqlarını təsvir edən mənzərəni yaradacaqdır. Bu da, öz növbəsində formalaşmış yaşayış

məhəllələrinin tarixi xarakterini və məkan strukturunu qorumağa, və yaşayış rayonlarında məskunlaşan əhali üçün maksimal dərəcədə keyfiyyətli yaşayış mühiti yaratmağa imkan verəcəkdir.

**Ədəbiyyat**

1. Нормы и правила проектирования планировки Москвы. МГСН.1.01- 99. М.2000. 119с.
2. Маслов А.В. Новая архитектура в исторической среде. М.: Стойиздат, 1990, 192 с.
3. Крашенинников В.М. Градостроительное развитие жилой застройки, исследование опыта зарубежных стран. М.: Архитектура С, 2005.- 112 с.
4. Soiron un village du de Herve. /, CRAU (Centre de Recherchesd'Architecture et d'Urbqnisme de l'Univeriste de Lieg). Lieg: Ministere de la cultirefranaise, 2003. 124p.
5. Communes de disonet de verviers / Rnovation du qartier des Fabriques des foxhalles et de 600 Franchimontois. Monographieralisepar: Recherche et Animation: R.O.C., Bruxelles.: 1997.148 p.

## References

1. Normy i pravila proektirovanija planirovki Moskvy. MGSN.1.01- 99. M.: 2000 119 s.
2. Maslov A.V. Novaja arhitektura v istoricheskoj srede. M: Stojizdat, 1990,192 s.
3. Krasheninnikov V.M. Gradostroitel'noe razvitie zhiloj zastrojki, issledovanie opyta zarubezhnyh stran. M.: Arhitektura S, 2005 112 s.
4. Soiron un village du de Herve./, CRAU(Centre de Recherchesd'Architecture et d'Urbqnisme de l'Univeriste de Lieg). Lieg:Ministere de la cultirefranaise, 2003. 124p.
5. Communes de disonet de verviers / Rnovation du qartier des Fabriques des foxhalles et de 600 Franchimontois. Monographieralisepar: Recherche et Animation: R.O.C., Bruxelles.: 1997.–148 p.

Redaksiyaya daxil olma/Received 06.01.2019
Çapa qəbul olunma/Accepted for publication 06.02.2019